**“Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 108 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsilə qəbul Qaydaları”nda dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 392 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 iyul 2011-ci il
464

Azərbaycan Respublikası Prezidentinin
2011-ci il 1 iyul tarixli 464 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi**

**QAYDASI**

1. Bu Qayda dövlət qulluqçusunun (o cümlədən staj və ya sınaq müddətində olan şəxsin) “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsini təmin etmək məqsədi ilə hazırlanmışdır və dövlət orqanının ləğvi, yaxud dövlət qulluqçularının sayının və ya ştatların ixtisarı ilə əlaqədar dövlət qulluğuna xitam verilmiş şəxslərin ehtiyat kadr kimi saxlanılması və vakant vəzifəyə təyin edilməsi məsələlərini tənzimləyir.

2. Dövlət orqanının ləğvi ilə əlaqədar dövlət qulluğuna xitam verilmiş şəxslər, öz razılığı əsasında, ləğv edilən dövlət orqanının bazasında yaradılmış yeni dövlət orqanında analoji vakant vəzifəyə (şəxsin əvvəllər qulluq keçdiyi vəzifənin tutulması şərtlərinə uyğun olan vəzifəyə) təyin edilməlidirlər. Dövlət orqanının rəhbəri yeni dövlət orqanının əsasnaməsinin və ştat cədvəlinin təsdiq edildiyi gündən 10 iş günü müddətində həmin şəxsləri analoji vakant vəzifəyə təyin etməli və bu barədə Azərbaycan Respublikasının *Dövlət İmtahan Mərkəzinə (bundan sonra – Mərkəz)* məlumat verməlidir.[1]

3. Ləğv edilən dövlət orqanının bazasında yaradılmış yeni dövlət orqanında ştatların sayı həmin şəxslərin müvafiq vəzifələrə təyin edilməsinə imkan vermədiyi halda, ilk növbədə, peşəkarlığı və idarəçilik təcrübəsi daha yüksək olan şəxslər analoji vakant vəzifəyə təyin edilirlər.

Dövlət orqanının ləğvi ilə əlaqədar dövlət qulluğuna xitam verilmiş şəxslərin peşəkarlığı və idarəçilik təcrübəsi eyni səviyyədə olduqda aşağıdakı şəxslərə üstünlük verilir:

3.1. şəhid ailəsinin üzvlərinə;

3.2. müharibə iştirakçılarına;

3.3. 10 il və daha çox dövlət qulluğu stajı olanlara;

3.4. əsgər və zabitlərin arvadlarına (ərlərinə);

3.5. öhdəsində iki və daha çox 16 yaşınadək uşağı olanlara.

4. Analoji vakant vəzifələrə təyin edilməmiş şəxslər ləğv edilən dövlət orqanının bazasında yaradılmış yeni dövlət orqanında 2 il müddətində ehtiyat kadr kimi saxlanılır və bu barədə *Mərkəzə* məlumat verilir.[2]

Müvafiq dövlət orqanında analoji vakant vəzifə yarandıqda həmin şəxslər 10 iş günü müddətində, bu Qaydanın 2-ci hissəsinə əsasən, analoji vakant vəzifəyə təyin edilməlidirlər və bu barədə *Mərkəzə* məlumat verilməlidir.

5. Ləğv edilmiş dövlət orqanının bazasında yeni dövlət orqanı yaradılmadıqda, dövlət orqanının ləğvi ilə əlaqədar

dövlət qulluğuna xitam verilmiş şəxslər 2 il müddətində *Mərkəzdə* ehtiyat kadr kimi saxlanılır.

Dövlət orqanlarında analoji vakant vəzifə yarandıqda *Mərkəz* həmin şəxsləri, onların öz razılığı əsasında, vəzifəyə təyin edilmək üçün 5 iş günü müddətində müvafiq dövlət orqanının rəhbərinə təqdim edir. Müvafiq dövlət orqanının rəhbərinə təqdim edilmiş şəxslər 10 iş günü müddətində, bu Qaydanın 2-ci hissəsinə əsasən, analoji vakant vəzifəyə təyin edilməli və bu barədə *Mərkəzə* məlumat verilməlidir.

6. Dövlət orqanı və ya onun bölmələri ləğv edilərək digər dövlət orqanlarının tərkibində yenidən təşkil qaydasında yaradıldıqda, əvvəllər həmin orqanda və ya onun bölmələrində qulluq keçmiş şəxslər müvafiq dövlət orqanlarında ayrılmış yeni ştat sayı həddində analoji vakant vəzifəyə təyin edilməlidirlər.

Dövlət orqanının və ya onun bölmələrinin digər dövlət orqanlarının tərkibində yenidən təşkili ilə əlaqədar dövlət qulluğuna xitam verilmiş şəxslərin analoji vakant vəzifəyə təyinatı bu Qaydanın 2-ci hissəsinə uyğun olaraq aparılır və bu barədə *Mərkəzə* məlumat verilir.

7. Dövlət qulluqçularının sayının və ya ştatların ixtisarı həyata keçirilərkən peşəkarlığı və idarəçilik təcrübəsi daha yüksək olan şəxslər işdə saxlanılır. Bu zaman şəxslərin peşəkarlığı və idarəçilik təcrübəsi eyni səviyyədə olduqda bu Qaydanın 3-cü hissəsində göstərilən şəxslərə üstünlük verilir.

8. Dövlət qulluqçularının sayının və ya ştatların ixtisarı ilə əlaqədar dövlət qulluğuna xitam verilmiş şəxslər 2 il müddətində həmin dövlət orqanında ehtiyat kadr kimi saxlanılır və bu barədə *Mərkəzə* məlumat verilir. Müvafiq dövlət orqanında analoji vakant vəzifə yarandıqda həmin şəxslər 10 iş günü müddətində, bu Qaydanın 2-ci hissəsinə əsasən, vəzifəyə təyin edilməlidirlər və bu barədə *Mərkəzə* məlumat verilməlidir.

9. Dövlət orqanının ləğvi, dövlət qulluqçularının sayının və ya ştatların ixtisarı ilə əlaqədar ehtiyat kadrlar siyahısına daxil edilən stajçı kimi və ya sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxs analoji vəzifəyə təyin olunduqda əvvəlki staj və sınaq müddəti nəzərə alınır. Ehtiyat kadrlar siyahısında olduğu müddət dövlət qulluqçusunun dövlət qulluğunda qulluq stajı hesablanarkən nəzərə alınmır.

10. Dövlət orqanının ləğvi, dövlət qulluqçularının sayının və ya ştatların ixtisarı ilə əlaqədar ehtiyat kadrlar siyahısına daxil edilən şəxslər (staj və ya sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxslər istisna olunmaqla) əvvəllər tutduqları vəzifədən daha yüksək vəzifəyə (analoji vəzifə istisna olunmaqla) iddia etdikdə, onlarla *"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş* qaydada müsahibə keçirilir.[3]

11. Dövlət orqanının ləğvi, dövlət qulluqçularının sayının və ya ştatların ixtisarı ilə əlaqədar ehtiyat kadrlar siyahısına daxil edilən şəxslərin analoji vakant vəzifəyə təyin edilməsi qanunvericilikdə müəyyən edilmiş vəzifənin tutulma şərtlərinə uyğun aparılır.

12. Dövlət orqanının ləğvi, dövlət qulluqçularının sayının və ya ştatların ixtisarı ilə əlaqədar ehtiyat kadrlar siyahısına daxil edilən şəxslər aşağıdakı əsaslarla ehtiyat kadrlar siyahısından çıxarılırlar:

12.1. öz arzusu ilə;

12.2. ehtiyat kadr siyahısında olma müddəti (2 il) bitdikdə;

12.3. dövlət qulluğu vəzifəsinə təyin edildikdə;

12.4. seçkili və ya təyinatlı vəzifə tutduqda;

12.5. Azərbaycan Respublikasının *vətəndaşlığına xitam verildikdə;*[4]

12.6. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edildikdə;

12.7. məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş qərarı olduqda;

12.8. dövlət qulluqçusu vəfat etdikdə, habelə məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 11 fevral 2015-ci il tarixli **460** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2015-ci il, 033 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 122**)
2. 16 may 2017-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 802**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 16 may 2017-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 802**) ilə "Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası"nın 2-ci hissəsində "**Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya (bundan sonra – Komissiya)** " sözləri "**Dövlət İmtahan Mərkəzinə (bundan sonra – Mərkəz)**" sözləri ilə əvəz edilmişdir.

[2] 16 may 2017-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 802**) ilə "Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası"nın 4-cü hissəsində (hər iki halda), 5-ci hissədə (hər üç halda), 6-cı hissənin ikinci abzasında, 8-ci hissədə (hər iki halda) ismin müvafiq hallarında "**Komissiya**" sözü ismin müvafiq hallarında "**Mərkəz**" sözü ilə əvəz edilmişdir.

[3] 16 may 2017-ci il tarixli **1398** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 18 may 2017-ci il, 105 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 802**) ilə "Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası"nın 10-cu hissəsində "**qanunvericilikdə müəyyən edilmiş hallarda və** " sözləri **"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş** " sözləri ilə əvəz edilmişdir.

[4] 11 fevral 2015-ci il tarixli **460** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2015-ci il, 033 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 2, maddə 122**) ilə 12.5-ci bəndində "**vətəndaşlığından çıxdıqda**" sözləri "**vətəndaşlığına xitam verildikdə** " sözləri ilə əvəz edilmişdir.